***PRESSA***

# 2016-cı ilin yanvar-sentyabr ayları üçün Azərbaycan Respublikasının

# T Ə D İ Y Ə B A L A N S I[1]

*2016-cı ilin yanvar-sentyabr aylarında ölkənin tədiyə balansı üzrə CƏB kəsiri 1.1 mlrd. $ təşkil etmişdir. Qeyri-neft sektoru üzrə CƏB-in kəsiri isə ötən ilin müvafiq dövrünə nisbətən 20.3% (1056 mln.$) azalaraq 4.1 mlrd. $ olmuşdur. Hesabat dövründə maliyyə hesabının kəsiri də ötən ilin müvafiq dövrünə nisbətən 3.3 dəfə azalaraq 2.0 mlrd. $ təşkil etmişdir (dollarlaşma istisna olmaqla kəsir 1.5 mlrd. $ təşkil edir).*

***2016-cı ilin yanvar-sentyabr aylarında tədiyə balansının əsas göstəriciləri***

Mln. $

| | |
|---|---|
| ***Cari əməliyyatlar*** | ***-1113.3*** |
| Xarici ticarət balansı | 2914.9 |
| Xidmətlər balansı | -2270.5 |
| İlkin gəlirlər balansı | -1797.9 |
| -İnvestisiya gəlirlərinin repatriasiyası | 1566.8 |
| Təkrar gəlirlər balansı | 40.2 |
| ***Kapital hesabı*** | ***-40.1*** |
| ***Maliyyə hesabı*** | ***-1973.7*** |
| *Xalis maliyyə aktivləri* | *4572.4* |
| *o cümlədən:* | |
| -xaricə yönəldilmiş birbaşa investisiyalar | 2086.8 |
| -portfel investisiyaları | -52.2 |
| -törəmə maliyyə alətləri | -0.7 |
| -digər investisiyalar | 2538.5 |
| *Xalis maliyyə öhdəlikləri* | *2598.7* |
| *o cümlədən:* | |
| - Azərbaycana cəlb olunmuş birbaşa investisiyalar | 5430.0 |
| - cəlb olunmuş investisiyaların repatriasiyası | -2088.0 |
| - portfel investisiyaları | 481.6 |
| - digər investisiyalar | -1224.9 |
| ***Balanslaşdırıcı maddələr*** | ***1936.9*** |
| ***Tədiyə balansının ümumi saldosu** (Ölkənin ehtiyat aktivlərinin dəyişməsi; "+" artım, "-" azalma)* | ***-1190.2*** |

***Qeyd:** Tədiyə balansı hesablamalarında xam neftin faktiki orta qiyməti 40$ (ötən ilin müvafiq dövründə 51$) olmuşdur.*

*1 Tədiyə balansının metodoloji tərtibatı ilə bağlı* http://cbar.az/assets/1186/final_metod.pdf *səhifəsinə müraciət edilə bilər.*

## Cari əməliyyatlar hesabı

2016-cı ilin yanvar-sentyabr aylarında cari əməliyyatlar hesabında 1113.3 mln. $ məbləğində kəsir yaranmış, o cümlədən neft-qaz sektoru üzrə cari hesabın profisiti 3.0 mlrd.$ məbləğində olmuşdur. Neft-qaz sektorunun profisiti qeyri-neft sektoru üzrə cari hesabın 4.1 mlrd. $ məbləğində kəsirinin 73.1%-ni örtmüşdür.

Mln.$




### *Xarici ticarət balansı*

Xarici ticarət dövriyyəsi 16.2 mlrd. $ təşkil etmiş və *xarici ticarət balansı 2.9 mlrd. $ məbləğində müsbət saldo ilə nəticələnmişdir*.

2016-cı ilin yanvar-sentyabr aylarında Azərbaycanın dünyanın 178-dək dövləti ilə ticarət əlaqələri olmuşdur. Xarici ticarətin 13%-i MDB üzvü olan dövlətlərin, 87%-i isə digər xarici dövlətlərin payına düşür.

**Əmtəə ixracı.** Hesabat dövründə əmtəə ixracı 9.5 mlrd.$ təşkil etmişdir. İxrac olunmuş malların strukturunda neft-qaz məhsullarının payı 91.8% olmuşdur.

Xarici dövlətlərə 7.7 mlrd.$ neft məhsulları ixrac olunmuş, ixrac olunmuş neft məhsullarının 346.4 mln.$-ı neft emalı məhsullarının, 7.4 mlrd. $-ı isə xam neftin ixracının payına düşür.

2016-cı ilin yanvar-sentyabr aylarında ölkənin **qeyri neft-qaz** ixracı 784.3 mln.$ təşkil etmişdir.

**Əmtəə idxalı.** Hesabat dövründə əmtəə idxalı 6.6 mlrd. $ təşkil etmişdir, o cümlədən istehlak mallarının idxalının ümumi dəyəri isə 2923.1 mln. $ olmuş, bunun da 1055.0 mln. $-ı ərzaq məhsullarının payına düşür. Qeyri-neft sektoru üzrə idxal ötən ilin müvafiq dövrünə nisbətən 13% azalaraq 4.8 mlrd. $ olmuşdur. Bu azalmanın əsas səbəbi isə minik avtomobillərinin (64.9%), tütün və tütün məhsullarının (47.8%), əczaçılıq məhsullarının (29.2%) azalması ilə bağlıdır.

İdxalın strukturunda xarici investisiyalar hesabına gətirilmiş maşın-avadanlıqların və malların xüsusi çəkisi 24.5% təşkil etmişdir.

***Xidmətlər balansı***

2016-cı ilin yanvar-sentyabr aylarında xarici dövlətlərlə Azərbaycanın iqtisadi əlaqələrində qarşılıqlı xidmətlər əsas yerlərdən birini tutmuş və bu xidmətlərin ümumi həcmi 8.8 mlrd. $ təşkil etmişdir. Bunun 5.5 mlrd. $-ı qeyri-rezidentlər tərəfindən Azərbaycanın rezidentlərinə, 3.3 mlrd.$-ı isə Azərbaycan rezidentlərinin xarici ölkələrin rezidentlərinə göstərilən xidmətlərdir.

Qarşılıqlı xidmətlər dövriyyəsinin 16.8%-i nəqliyyat xidmətləri üzrə aparılan əməliyyatların payına düşür. Ümumi dəyəri 1471 mln. $ olan nəqliyyat xidmətlərinin 56.2%-i qeyri-rezidentlərin Azərbaycanın nəqliyyat sistemlərindən istifadə etmələri ilə əlaqədardır.

Azərbaycanın rezidentlərinin qeyri-rezidentlərə göstərdikləri nəqliyyat xidmətlərinin dəyəri 827 mln. $, qeyri-rezidentlərin Azərbaycan rezidentlərinə göstərdikləri nəqliyyat xidmətlərinin dəyəri isə 644 mln. $ təşkil etmişdir.

2016-cı ilin yanvar-sentyabr aylarında qarşılıqlı turizm xidmətlərinin dövriyyəsi ötən ilin müvafiq dövrünə nisbətən 8.3% artaraq 3.9 mlrd. $-dan çox olmuşdur. Beləliklə, ötən ilin müvafiq dövründə turizm xidmətləri üzrə yaranmış 259 mln. $-lıq kəsir 2016-cı ilin 9 ayının yekunu üzrə 207 mln. $-lıq profisitlə əvəzlənmişdir.

Öz növbəsində xarici ölkələr tərəfindən Azərbaycan rezidentlərinə turizmlə bağlı göstərilən xidmətlərin dəyəri 1847.9 mln. $ məbləğində olmuşdur. Bunun 72.6%-i Azərbaycan vətəndaşlarının şəxsi səfərləri ilə bağlı xarici ölkələrdə olarkən sərf etdikləri vəsaitlərin (məkik idxal üçün vəsaitlər istisna olmaqla) payına düşür.

Hesabat dövründə qeyri-neft sektoru üzrə qeyri-rezidentlərə ödənilən tikinti xidmətlərinin dəyəri ötən ilin müvafiq dövrünə nisbətən 2.2 dəfə azalaraq 86 mln. $ təşkil etmişdir. Qeyri-neft sektoru üzrə qeyri-rezidentlərə ödənilən digər işgüzar xidmətlərin dəyəri isə ötən ilin müvafiq dövrünə nisbətən 27.9% azalaraq 474 mln. $ olmuşdur.

***İlkin gəlirlər balansı***

Hesabat dövründə gəlirlər üzrə daxilolmaların və ödənişlərin ümumi dövriyyəsi 3.3 mlrd. $-a çatmışdır. Bunun 77.3%-ni (2.5 mlrd. $) Azərbaycandan ödənişlər təşkil edir. Bu məbləğin isə əsas hissəsini (1791 mln.$) beynəlxalq neft-qaz konsorsiumları üzrə xarici investorların payına düşən gəlirlərin repatriasiyası (əsasən xam neft şəklində) təşkil edir.

***Təkrar gəlirlər balansı***

Təkrar gəlirlər üzrə xarici ölkələrlə aparılan əməliyyatların ümumi dəyəri 901.7 mln.$ məbləğində qiymətləndirilmişdir. Bu məbləğin 52.2%-ni ölkəyə daxilolmalar təşkil edir.

Təkrar gəlirlər üzrə ümumi daxilolmaların 91.9%-ni xarici ölkələrdən fiziki şəxslərin pul baratları, 4.5%-ni ölkəyə gətirilən humanitar idxal mallarının dəyəri, 3.6%-ni isə digər daxilolmalar təşkil edir.

Bütövlükdə, təkrar gəlirlər üzrə əməliyyatların saldosu müsbət 40.2 mln. $ təşkil etmişdir.

## Maliyyə hesabı[2]

2016-cı ilin yanvar-sentyabr aylarında ölkənin xalis maliyyə aktivləri 4.6 mlrd.$ artmışdır. Bu göstərici əsasən xaricə yönəldilmiş birbaşa investisiyalar (2086.8 mln.$), portfel investisiyaları (-52.2 mln.$), törəmə maliyyə alətləri (-0.7 mln.$) və digər investisiyalar (2538.5 mln.$) hesabına formalaşmışdır. Hesabat dövründə ölkənin xalis maliyyə öhdəlikləri isə 2.6 mlrd.$ təşkil etmişdir ki, bu da xaricdən cəlb olunmuş xalis birbaşa investisiyalar (3342.0 mln.$), portfel investisiyaları (481.6 mln.$) və digər investisiyalar (-1224.9 mln.$) hesabına formalaşmışdır.

***2016-cı ilin yanvar-sentyabr ayları üzrə xalis maliyyə aktivləri və öhdəlikləri***

Mln.$

| | **Aktivlər** | **Öhdəliklər** |
|---|---|---|
| **Birbaşa investisiyalar** | **2086.8** | **3342.0** |
| - neft–qaz sektoru | 1502.3 | 2221.3 |
| - digər sektorlar | 584.5 | 1120.7 |
| **Portfel investisiyaları** | **-52.2** | **481.6** |
| **Törəmə maliyyə alətləri** | **-0.7** | |
| **Digər investisiyalar** | **2538.5** | **-1224.9** |
| - ticarət kreditləri və avanslar | 2482.6 | 244.5 |
| - kreditlər və ssudalar | -157.9 | -878.3 |
| -depozitlər və nağd valyuta | 213.8 | -591.1 |
| **C Ə M İ** | **4572.4** | **2598.7** |

***2 Beynəlxalq Valyuta Fondunun tədiyə balansı üzrə yeni (6-cı nəşr) Təlimatının tələblərinə uyğun olaraq tədiyə balansının strukturunda kapital və maliyyə hesabı Aktivlər/Öhdəliklər prinsipi üzrə təsnifləşdirilmişdir. Bununla əlaqədar olaraq cədvəl göstəriciləri yeni strukturda verilmişdir.***

***Birbaşa investisiyalar***

Birbaşa investisiyalar formasında xaricdən cəlb olunmuş sərmayələrin ümumi məbləği 5.4 mlrd. $ olmuşdur. Bu investisiyaların strukturunda neft-qaz sektorunun xüsusi çəkisi 79.2% təşkil etmişdir.

Qiymətləndirmələrə görə qeyri-neft sektoruna cəlb olunmuş birbaşa investisiyaların ümumi məbləği 1131.8 mln. $ olmuşdur.

***Kreditlər və digər investisiyalar***

Hesabat dövründə kreditlər və ssudalar üzrə xalis maliyyə aktivləri 157.9 mln.$, xalis maliyyə öhdəlikləri isə 878.3 mln.$ azalmışdır.

Depozitlər və nağd valyuta üzrə xalis maliyyə aktivləri 213.8 mln.$ artmış, xalis maliyyə öhdəlikləri isə 591.1 mln.$ azalmışdır.

## Ehtiyat aktivləri

Hesabat dövründə ölkənin ehtiyat aktivləri 1190 mln. $ məbləğində azalmışdır.